AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX və ETNOLOGİYA
İNSTİTUTU

NAZİM MƏMMƏDOV

# AZƏRBAYCAN TARİXİNİN YENİ DÖVRÜNÜN BAŞLANĞICI: XANKƏNDİ ZƏFƏRİ

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2024

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Qarabağ müharibəsi tarixi və Böyük Qayıdış hərəkatı" şöbəsinin qərarı ilə nəşr olunur

**Elmi redaktor:** **Ədalət Mustafayev**
tarix üzrə fəlsəfə doktoru

**Rəyçilər:**
**Şahin Fərzəliyev** – t.e.d.,professor
**Zemfira Hacıyeva** – t.e.d., professor
**Mehman Süleymanov**–t.e.d., professor
**Nərminə Əmirbəyova** – t.ü.f.d., a.e.i.
**Rəna Baxışova** – AMEA-nın b.e.i.
**Bəxtiyar Həsənov** – t.ü.f.d., dos.

**Kompüter dizayner:** **Ramilə Gül**

**Nazim Rəhbər oğlu Məmmədov. Azərbaycan tarixinin yeni dövrünün başlanğıcı: Xankəndi zəfəri. Bakı, 2024, ADPU-nəş. 175 s.**

Kitabda, Xankəndi şəhərinin Azərbaycanın qədim yaşayış məskəni olması tarixi mənbələrə əsaslanaraq sübut edilmiş, erməni ideoloqlarının "sosial-iqtisadi gerilik" konsepsiyasının tamamilə əsassız olması arxiv sənədləri ilə əsaslandırılmış, nəhayət uzun müddətli işğaldan sonra Xankəndi şəhərinin işğaldan azad edilməsi, şəhərdə həyata keçirilən quruculuq və bərpa prosesinə başlanması, Qarabağ Universitetinin yaradılması və tarixi əhəmiyyəti, Xankəndi şəhərinin idman yarışına ev sahibliyi etməsi ilə Qarabağın Azərbaycan olmasını bütün dünyaya çatdırılması tədqiq olunmuşdur.

## Mündəricat

**GİRİŞ.** ....................................................................6
**I FƏSİL. Azərbaycanın qədim yaşayış məskəni: Xankəndi**.............................................. 11
**II FƏSİL. Heydər Əliyev və Xankəndi şəhərinin sosial-iqtisadi inkişaf strategiyası (1970-1985-ci illər).** 26
**III FƏSİL. Xankəndi şəhərində mədəniyyətin dinamik inkişaf dövrü (1970-1985-ci illər.** .................... 39
**IV FƏSİL. Azərbaycan tarixinin yeni dövrünün başlanğıcı: Xankəndi zəfəri.** ........................... 61
**V FƏSİL. Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması və tarixi əhəmiyyəti.** .................. 108
**VI FƏSİL. İdman yarışlarının ev sahibi: Azad Xankəndi şəhəri.** ..................................................128
**NƏTİCƏ.** ......................................................................138
**Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti, İdarəetmə Xidmətinin "Nizamnaməsi".** ............................................151
**İstifadə olunan mənbələr** ............................................166



"Xankəndi Azərbaycanın dinamik inkişaf edən şəhərlərindən biridir.... Qısa bir müddətdə şəhərin görkəmi tamamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş çoxsaylı binalar, mədəniyyət abidələri ucaldılmışdır.... Xankəndi şəhərinin iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmiş, dünyəvi teatr, müasir məktəb və demokratik mətbuat yaranmış, savadsızlıq ləğv olunmuş tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin inkişaf etmiş şəbəkəsi yaradılmışdır.... Tam əminliklə deyə bilərəm ki, Ağdam-Xankəndi dəmir yolunun istifadəyə verilməsi, bölgədə məhsuldar qüvvələrin daha da inkişaf etdirilməsinə, burada yaşayan sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edəcəkdir".

***Heydər Əliyev***
***Azərbaycan xalqının Ümummilli lideri***





Xankəndi qədim Azərbaycan diyarıdır... Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, qədim və əzəli torpağımızdır. Bu torpaqların sahibləri biziк, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq... Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır... Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər. Biz – bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır... Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan***

## Giriş

Xankəndi Azərbaycanın qədim yaşayış məskənidir. 1938-1939-cu illərdə Qarabağın Xankəndi ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində Eneolit və Tunc dövrünə aid kurqanlar aşkar edilmişdir. Kurqanaltı dəfn kameraları dairə formalı (diametri 4,5 metrədək) olub, dayaz xəndəklə əhatələnmişdir. Kameraya, enli sal daşla örtülmüş giriş yolu var. Kameralar e.ə. V-III minilliklərdə Zaqafqaziyada geniş yayılmış yaşayış binalarını xatırladır. Çoxtəbəqəli Xankəndi Kurqanları kollektiv dəfn adəti ilə səciyyələnir. Ölülərin üstü gil və xırda çay daşları ilə örtülmüşdür. E.ə. III minilliyin əvvəllərinə aid təbəqədə uşaq və yaşlılar birgə dəfn edilmişdir. Bu, kurqanların ailəvi və ya qəbiləyə məxsus dəfn yeri olduğunu göstərir. Ailənin üzvləri sol və ya sağ yanı üstə bükülü, yaxud oturmuş formada, ağsaqqallar, qəbilə başçıları isə arxası üstə uzadılmış vəziyyətdə dəfn olunmuşdur. Xankəndi Kurqanlarından daş gürzlər, mis xəncər tiyələri, daş həvəng, ox ucları, sümük alətlər, qızıl muncuq, müxtəlif keramika nümunələri, heyvan sümükləri və sair aşkar edilmişdir. Bütün bunlar onu göstərir ki, yaşayış üçün əlverişli şəraiti olan Azərbaycanın Xankəndi ərazisi dünyanın qədim insan məskənlərindən biridir.

1930-cu illərə qədər Xankəndi azərbaycanlılar yaşayan məhəllələrdən ibarət idi. Məşədi Musa, Dükançı Umud, Çörəkçi Aslan, Lavaşçı Mürsəl, Lavaşçı İsmayıl, Qəssab Abbas, Kürd Səlim, Saçlı arvad, Cərrah Rüstəm, Mirzə Cavad həkim, milyonçu Məhəmmədağa, kamançaçı İmran ağa, tanınmış seydlər Əkbər, Novruz, Bəhmən ağalar, Katib Tağı, Xanlıq Muxtar, Kərim bəy Qalabəyov və onlarla Qarabağda tanınmış şəxsiyyətlər xankəndili olmuşlar. Uzun illər DQMV-nın Maarif sisteminin rəhbərliyində təmsil olunan, Azərbaycan Respublikasının əməkdar müəllimi, Xankəndi şəhərində erməni daşnaklarının təzyiqinə baxmayaraq orada ilk dəfə azərbaycanlılar üçün orta ümumtəhsil məktəbinin yaradıcısı, tanınmış ziyalı



Yusif Əli oğlu Əliyev, gözəl ziyalı, dəyərli insan, dünya şöhrətli alim, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan İnşaat Mühəndisləri Universitetinin professoru Vidadi Yusif oğlu Əliyev, Azərbaycanın Milli Qəhrəmanı, mərhum polkovnik Şirin Vəli oğlu Mirzəyev, APU-nun müəllimi, filologiya elmləri doktoru, professor Azər Hüseynov, tanınmış həkim, görkəmli ziyalı, professor Rasim Hacıyev, tanınmış ziyalı, dəmiryolu generalı Tələt Bəbir oğlu Tağıyev və onlarla-başqaları xankəndilidirlər.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2023-cü il dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun səkkizdə bir final mərhələsində Ağdamın "Qarabağ" və Bakının "MOİK" komandaları arasında keçirilən oyunun fasiləsində qalib idmançılarla görüşü zamanı çıxışında demişdir: "Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz! İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq. Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır... Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, qədim və əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq... Üç ay bundan əvvəl [2023-cü il sentyabrın 19-u nəzərdə tutulur –

N.M.] Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır... Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər. Biz – bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır... Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və "Mərkəzi Ordu İdman Klubu"nun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir".

Qeyd edək ki, 1970-1985-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü, düşüncəsi, inadlı fəaliyyəti və dərin qayğısı nəticəsində Azərbaycanın Xankəndi şəhərində sənaye üstün, sürətlə və dinamik inkişaf etmiş, əhalinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdır. Həmin illərdə Xankəndi şəhərində mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Xankəndi şəhərində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Şəhərin mənəvi sərvəti, kadr potensiyalı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Xankəndi şəhərində mədəniyyət dinamik inkişaf etdi. Artıq XX əsrin 80-ci illərinin ortalarında Xankəndi şəhəri Azərbaycanın inkişaf etmiş mədəniyyətə malik şəhərlərindən birinə çevrilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin



yaradılması işğaldan azad olunmuş ərazilərimizin yenidən bərpası istiqamətində atılan ən önəmli addımlardan biridir. Vaxtilə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi fəaliyyət göstərən və ərazilərimizin işğalı zamanı fəaliyyətini dayandıran bu ali təhsil ocağının şanlı Zəfər tariximizdən sonra Qarabağda ilk universitet olaraq yenidən qurulması mühüm sosial-siyasi əhəmiyyət daşımaqla yanaşı, tarixi ədalətin bərqərar olunması baxımından da böyük mənəvi dəyər kəsb edir. Qarabağ Universitetinin yaradılması işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdışın sürətlənməsində də əhəmiyyətli rol oynayacaqdır. Tarixi torpaqlarımız olan Qarabağda elmə və təhsilə hər zaman xüsusi qayğı göstərilmiş, bu sahələr daim diqqətdə saxlanılmışdır. Regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədlə yenidən qurulan Qarabağ Universiteti Prezident İlham Əliyevin və Birinci Vitse-Prezident Mehriban Əliyevanın ölkədə elmin və təhsilin inkişafına verdikləri dəyərin, diqqət və qayğının daha bir bariz nümunəsidir.

Bütün bunlarla yanaşı Xankəndi şəhəri 2023-cü il dekabrın 23-də futbol yarısına və 2024-cü il martın 1-də Xankəndi-Bakı marafonunun ev sahibliyi etmişdir.

Xankəndində keçirilən idman yarışları Azərbaycana pis gözlə, düşmənçilik təfəkkürü ilə baxanlara bir mesajdır. Elə bu səbəbdən Xankəndi şəhərində keçirilən yarışlar təkcə bir idman hadisəsi deyil. Onun siyasi əhəmiyyəti olduqca böyükdür. Bu idman yarışları Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi qələbənin təzahürü, onun dünyaya növbəti sülh mesajı, Azərbaycanın Zəfərinin göstəricisidir. Xankəndi şəhərində keçirilən idman yarışları bəlkə də kənardan baxanlara adi bir idman hadisəsi kimi gələ bilər. Amma hər bir azərbaycanlı üçün bu oyunlar, kökü 200 il əvvələ gedən və neçə-neçə nəslə acı talelər yaşadan bir problemin kökündən həllinin daha bir göstəricisidir. Xankəndinin mərkəzində Azərbaycan bayrağının

dalğalanması kimi, bu şəhərin stadionunda futbolu seyr etmək və şəhərdən ulturamarofonun start götürməyinə şahidlik etmək böyük xoşbəxtlik və tarixi hadisədir. Elə bu oyunların da Ermənistan və onun havadarlarının mövcud reallığı qəbul etməkdən başqa yollarının olmadığını çox açıq şəkildə ifadə edir. Xankəndi şəhərində reallaşan idman yarışları Qarabağın Azərbaycan olduğunu idman dili ilə bütün dünyaya çatdırdı. Bütün bunlarla yanaşı Xankəndində baş tutan idman yarışları Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, siyasi əzmi, qətiyyəti, iradəsi nəticəsində Azərbaycan işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrildiyinə əyani sübutdur. Eyni zamanda, ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmin edilməsinə, bayrağımız Xankəndində, Xocalıda, Xocavənddə, Əsgəranda və bütün ərazilərimizdə dalğalandırılmağını. Qarabağda separatizmin kökünün birdəfəlik kəsildiyinə bir mesajdır.



# I FƏSİL

## AZƏRBAYCANIN QƏDİM YAŞAYIŞ MƏSKƏNİ: XANKƏNDİ

Azərbaycanın qədim yaşayış məskəni olan Xankəndi şəhərinin tarixi keçmişi haqqında təhlillər aparmazdan öncə ümumilikdə Qarabağ bölgəsi, onun etimologiyası, ərazisi və sərhədləri barədə qısa xülasə verməyimiz yerinə düşərdi. Qeyd edək ki, Qarabağ Azərbaycanın ən qədim mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii coğrafi şəraiti-şirin su qaynaqlarının, bitki və heyvanlar aləminin zənginliyi, təbii mağaraların olması-hələ qədim dövrlərdən burada ibtidai insanların məskən salmasına imkan yaratmışdır. Dünyada insanın yarandığı ilk məskənlərdən biri olan və əsrlər boyu təkcə Azərbaycanın deyil bütün Zaqafqaziyanın iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış Qarabağın olduqca zəngin bir keçmişi vardır. Əsrlər boyu yadelli işğalçıların ardı-arası kəsilməyən hücumlarına sinə gərmiş qədim Qarabağ əhalisi nəinki öz varlığını qoruyub saxlamış, həmçinin xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən zəngin maddi-mədəniyyət abidələri yaratmışdır. Lakin çox təəssüflər olsun ki, erməni vandalları, dünyada analoqu olmayan, xalqımızın uzun əsrlər ərzində yaratdığı bu zəngin mədəniyyəti yandırmış, dağıtmış və ya özününküləşdirməyə cəhd etmişlər.

Qarabağ tarixən Azərbaycanın iqtisadi cəhətdən zəngin, inkişaf etmiş əyaləti olmuşdur. Qarabağ coğrafi mövqeyinə görə Şərq və Qərb ölkələri arasında sanki bir körpü idi. Təsadüfü deyil, ki, İran dövləti Qarabağı Zaqafqaziyanın açarı, rus çarizmi isə onu nəinki Azərbaycanın hətta İranın qapısı hesab edirdi.

Erməni tarixşünaslığında Azərbaycanın Kür və Araz çayları arasındakı ərazisinin, o cümlədən Yuxarı Qarabağın tarix boyu Ermənistanın tərkib hissəsi olması kimi saxta

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

